# Yetmiş yaşın işığında

Ömrünün yarım əsrə yaxınını xalqın maarifləndirməsinə, gələcək nəslin təlim-tərbiyəsinə həsr edən Ədalət müəllimin 70 yaşı tamam oldu. Hər zaman gülərüzlü, mehriban simalı, işinin fədaisi olan, həyatda hər an özünə dost qazanan, bir insan kimi hər yerdə ürək xoşluğu ilə qarşılanan Ədalət müəllimin adı gələndə onu tanıyanların çöhrəsinə xoş ifadə yayılır, hörmət hissi duyulur. Həyatının belə görüntülərini isə yaşamaq xoşbəxtlikdir.

Bir gün Ədalət müəllimlə həmsöhbət olanda boylanıb ötən ömrün şirinli-acılı xatirələrinə səyahət etdik, yaşanan ömür kitabını vərəqlədik. O, danışdıqca mən bloknotumda qeydlər aparıram.

Ədalət Əlövsət oğlu Nemətov 1952-ci ildə Masallı rayonunun Əhmədli kəndində ziyalı ailəsində dünyaya göz açıb. Onda dünyanın gözəl, təravətli Bahar çağı idi. Aprel çiçəkləri hər tərəfi al-əlvan bəzəyib ətir saçırdı. Bu gözəl ab-hava insanlara xoş ovqat bəxş edirdi. İllər keçdi. Yeddi yaşlı Ədalət Əhmədli məktəbinin 1-ci sinfində elmin sirlərini öyrənməyə başladı. Atası Əlövsət rayonun sayılıb-seçilən pedaqoqlarından idi. O, 50 ilə yaxın doğma Əhmədli əsas məktəbində çalışıb və qüsursuz rəhbərliyi ilə rayonda tanınıb. Əlövsət müəllim Ədalətdə elmə, təhsilə həvəsi görüb arxayınlaşdı.

1967-ci ildə kənd məktəbinin VIII sinfini bitirəndə təhsilini qonşu Təklə kənd orta məktəbində davam etdirmək



qərarına gəldi. Burada da çalışqanlığı, əxlaqı, şagird dostlarına xoş münasibəti ilə müəllimlərin hörmət və etimadını qazandı.

1969-cu ildə məktəbi bitirəndə tələbə olacağına hamı inanırdı. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun riyaziyyat fakültəsinə daxil oldu. Unudulmaz tələbəlik illərini diplom almaq xatirinə keçirmədi. Gələcəkdə savadlı, hərtərəfli dünyagörüşünə malik müəllim olmaq üçün bütün səylərini birləşdirdi. Tələbə elmi cəmiyyətinin ən savadlı, fəal üzvü kimi tanındı.

İlk dəfə pedaqoji fəaliyyətə Təklə orta məktəbində, vaxtilə elm, savad öyrəndiyi müəllimləri ilə çiyin-çiyinə başlayıb.

1991-ci ildə Bakıda PİT-də çalışıb, iki il sonra doğma rayonuna qayıdıb, təhsil şöbəsində metodist işləyib. Yeddi il bu sahədə çalışan Ədalət müəllim bu gün də onu tanıyanların yadında əsl pedaqoq kimi qalıb. SSRİ-nin Maarif əlaçısı olmaqla respublika və xarici ölkə mətbuatında 20-dən çox metodiki məqalənin müəllifi kimi tanınıb. 1997-ci ildə "Tək bir alətlə qurma məsələləri" metodiki vəsaiti ölkə riyaziyyatçılarının marağına səbəb olub.

Pedaqoji elmlər doktoru, professor A.Adıgözəlov kitabın ön sözündə Ədalət müəllim haqqında, onun yaradıcılığı barədə çox önəmli məqamlara toxunmuşdur. Müəllif yazır ki, riyazi dünyagörüşünə, savad və mühakimələrinə, pedaqoji və metodiki işə həvəsinə, marağına hələ tələbəlik dövründən bələd olduğum Ədalət Nemətovun səriştəli, qabaqcıl, novator müəllim olacağına inanırdım. Onun "Fizika və riyaziyyat tədrisi" məcmuəsində yer alan elmi və metodiki məqalələrindəki məntiqi fikirlər pedaqoji ictimaiyyət arasında böyük əks-səda yaratdı. Bu uğurları onu tez bir zamanda təkcə ölkəmizdə deyil, hətta keçmiş SSRİ məkanında sayılıb-seçilən pedaqoqlar sırasına çıxardı.

1981-1988-ci illərdə Moskva şəhərində M.V.Lomonosov adına MDU-da ixtisasartırma kursunda respublikamızı müvəffəqiyyətlə təmsil edən Ə.Nemətov bir-birinin ardınca "Baş müəllim", "Metodist müəllim", "Sosializm yarışının qalibi", "Azərbaycan Respublikasının qabaqcıl maarif xadimi", "SSRİ-nin Maarif əlaçısı", "Ən gənc müəllim", "Ali kateqoriyalı müəllim", "Ali kateqoriyalı metodist", "SSRİ Pedaqoji Elmlər Akademiyasının Təlim Metodlarının Təkmilləşdirilməsi Laboratoriyaçısı" kimi yüksək adlara layiq görülüb. Yetirmələri arasında onlarca elmlər namizədi və doktoru vardır. Keçirilən elmi görüşlərdə və təhsillə bağlı tədbirlərdə səmərəli təklifləri, mülahizələri, təşəbbüsləri ilə diqqəti cəlb edir.

Yeddi il Masallı təhsilinə rəhbərlik edən Ədalət müəllim ərizəsinə əsasən işdən azad olunaraq şəhərdəki "Dəfinə" məktəb-liseyinə direktor təyin olunmuş və burada da 3 ildən çox çalışmışdır. 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və xanımı Mehriban Əliyevanın "Dəfinə" məktəb-liseyində olması Ədalət müəllimin xatirində əbədi qalacaqdır.

2009-cu ildə isə rayonda ilk dəfə rəhbərlik etdiyi məktəb-liseyin respublika üzrə "İlin məktəbi" müsabiqəsinin qalibi olması Ədalət Nemətovun təhsildəki idarəetmədə püxtələşdiyini nümayiş etdirdi.

Dövlətə, xalqa həmişə xidmətdə olan Ədalət müəllim Yeni Azərbaycan Partiyasının üzvüdür.

Respublika müəllimlərinin qurultayında ulu öndər Heydər Əliyevlə, 2005-ci ildə Təzəkənd və I Yeddioymaq orta məktəblərinin açılışlarında Mehriban xanım Əliyeva, 2007-ci ilin oktyabrında Prezident cənab İlham Əliyev və xanımı Mehriban Əliyeva ilə görüşləri həyatının ən nurlu, sevincli anlarıdır, zəhmətinə verilən "Tərəqqi" medalı isə 2009-cu ildə ömrünün unudulmaz tarixinə yazıldı.

Ədalət müəllim el-obasının Vətənini sevən sevimli oğlu, övladlarına vətənpərvərlik hissi, böyük -kiçik meyarını aşılayan ata, gözəl ailə başçısı kimi də səciyyələndirilir.

Ağsaqqal pedaqoqun üzündə bu gün də sevinc cilvələnir, gənclik həvəsi ilə həyata, dünyaya baxır, hamının yanında xətir-hörmətlidir.

Bu gün rayonun təkcə pedaqoji işçiləri deyil, ictimaiyyət nümayəndələri də Ədalət Nemətovu təbrik edir, ona həyatın ən gözəl neməti olan cansağlığı, uzun ömür, yaradıcılıq uğurları arzulayır.

**Həsənağa ƏLİYEV**

Azərbaycan müəllimi.- 2022.- 15 aprel.- S.8.